**AZƏRBAYCAN RESPUBLİKASININ
AUDİTORLAR PALATASI ŞURASININ
Q Ə R A R I**

**Bakı şəhəri** **№ 254/6** **10 sentyabr 2014-cü il**

**«Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi» barədə**

«Azərbaycan Respublikasında Auditor Xidmətinin İnkişaf Konsepsiyası» nın VI fəslinin 17-ci bəndinə və Auditorlar Palatası Şurasının 2013-cü il 19 dekabr tarixli 248/1 saylı qərarı ilə təsdiq edilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının 2014-2016-cı illər üzrə iş planının 1.14 «Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi» maddəsinə uyğun olaraq tərtib olunmuş plan–proqramın 5-ci «Auditin statistik göstəricilər sisteminin işlənib hazırlanması və tətbiqi» bəndinin icrası ilə əlaqədar sədrin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbovun təqdim etdiyi materialı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

**1.** Auditorlar Palatasının iş planının 1.14 «Audit sahəsində qabaqcıl təcrübənin öyrənilməsi və tətbiqi» maddəsinə müvafiq olaraq hazırlanmış «Auditin statistik göstəricilər sistemi» Palata Şurasının iclasında edilmiş təklif və tövsiyələr nəzərə alınmaqla yenidən işlənilsin.

**2.** Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbova tapşırılsın ki, Auditin təşkili və tənzimlənməsi idarəsi (M.Hacıyev), Analitik informasiya və təhlil şöbəsi (R.Cəfərli), Metodik Komitə (F.Mustafayev), Milli auditə dəstək üzrə Komitə (Z.Hüseynov), İnformasiya və mətbuat üzrə Komitə (E.Əliyev) ilə birlikdə 15 noyabr 2014-cü il tarixə «Auditin statistik göstəricilər sistemi» nin yeni layihəsini təqdim etsin.

**3.** Palatanın Keyfiyyətə nəzarət və hüquqi təminat İdarəsinə (M.Abbasov), Auditin təşkili və tənzimlənməsi idarəsinə (M.Hacıyev), Kadr hazırlığı və beynəlxalq əlaqələr İdarəsinə (S.Gülməmmədov), Maliyyə və təsərrüfat İdarəsinə (V.Rəhimov), Analitik informasiya və təhlil şöbəsinə (R.Cəfərli) tapşırılsın ki, «Auditin statistik göstəricilər sistemi» nə uyğun olaraq statistik göstəricilərin əldə edilməsi, emalı və tövsiyələrin hazırlanması üzrə müvafiq maddələrin Palatanın növbəti illər üçün hazırlanacaq iş planına daxil edilməsi və icra olunması üçün zəruri tədbirlərin görülməsini təmin etsinlər.

**4.** Bu qərarın mətninin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**